legal quiz

**Biliklə fərq yarat**

# Qanun Xəbərləri

*2-ci buraxılış*

Hörmətli istifadəçilər,

Aşağıdakı normativ aktlarda aşağıdakı məzmunda dəyişikliklər edilmişdir. Müvafiq dəyişikliklər əsasında legalquiz.az saytının test bazası təkmilləşdirilmişdir:

1. **“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu**

Qanunun 9-cu maddəsi yeni redaksiyada təsdiq olunub və məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılma qaydasını müəyyən edir. Bununla əlaqədar aşağıdakı bəzi müddəalar müəyyən olunub:

- *Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə ümumi qaydada 5 gün müddətinə, qısamüddətli mühafizə orderi ilə əlaqədar müraciət olunan zaman 24 saat ərzində baxılır;*
- *Araşdırma üçün əlavə materiallar tələb olunarsa şikayətə baxılma müddəti 5 gündən çox olmayaraq artırıla bilər (qısamüddətli mühafizə orderi barəsində olan şikayətə baxılma müddəti istisna olmaqla);*
- *Zərər çəkmiş şəxsin tələbi ilə dinləmədə vəkil və psixoloqun iştirakı təmin edilir. Zərər çəkmiş şəxslərdən biri 16 yaşınadək və ya əlilliyi olan şəxs olduqda isə, aparılan araşdırma və dinləmələrdə pedaqoqun və ya psixoloqun iştirakı təmin olunur;*
- *Şikayətə baxılması nəticəsində bir və ya bir neçə qərar qəbul edilə bilər.*

2. **“İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu**

Müvafiq dəyişikliklə alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyən olunması qaydası müəyyən olunub. Belə ki, alkoqollu içkilərin pərakəndə satışının minimum qiyməti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək və alkoqollu içkilərin müəyyən olunan qiymətdən aşağı qiymətə satılması qadağan ediləcək.

Veb-sayt: legalquiz.az
Elektron poçt: support@legalquiz.az
Ünvan: Nizami küçəsi 2, Bakı, Azərbaycan

legal quiz

**Biliklə fərq yarat**

3. **“Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanunu**

Müvafiq dəyişikliklə avtomobil yolları istifadəçilərinin məsuliyyətinin dairəsi genişləndirilib və ödəniş məntəqələrindən keçmədən kənar yollardan (yerlərdən) istifadə etməklə, habelə buraxılış məntəqələrinin normal işinə mane olmağa görə məsuliyyət müəyyən olunub.

4. **Mülki Məcəllə və “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu**

Müvafiq dəyişikliklər nikah yaşı ilə əlaqədardır. Mülki Məcəllədən “on səkkiz yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi hal” və bununla bağlı şəxsin (yetkinlik yaşına çatmayanın) fəaliyyət qabiliyyəti qazanması (itirməsi) məsələsi Məcəllədən çıxarılıb (28.6 və 28.7-ci maddələr).

Adıçəkilən qanundan isə nikah yaşının qadın və kişi arasında ayrı seçkilik yaratmayan hal olması aradan qaldırılıb.

Dəyişikliklərlə əlaqədar suallarınız olarsa, bizimlə əlaqə saxlaya bilərsiniz.

Hörmətlə,
Legal Quiz komandası

Veb-sayt: legalquiz.az
Elektron poçt: support@legalquiz.az
Ünvan: Nizami küçəsi 2, Bakı, Azərbaycan